**Azərbaycan.** - 2023.- 19 dekabr. - № 277. - S. 6.

# Prezident İlham Əliyev ölkənin aqrar sektorunu yeni inkişaf mərhələsinə çıxarıb

## 2004-2022-ci illərdə Azərbaycanın kənd təsərrüfatında yaradılan əlavə dəyər dünya üzrə orta göstəricidən yüksək olub

**Züleyxa Əliyeva**

Müasir dövrdə kənd təsərrüfatı iqtisadiyyatın vacib sahəsi hesab olunur. Çünki aqrar sektor bu və ya digər ölkənin iqtisadi tərəqqisinə təkan verməklə kifayətlənmir, həm də sosial problemlərin həll edilməsi yönündə, xüsusilə, ərzaq təhlükəsizliyinin təminatı və məşğulluq səviyyəsinin artırılmasında əsas rol oynayır.

2015-ci il Prezident İlham Əliyevin sərəncamı ilə "Kənd təsərrüfatı ili" elan edilmişdi. Bu, kənd təsərrüfatının inkişafına yeni təkan vermək və onun modernləşdirilməsini sürətləndirmək, innovativ texnologiyalara yol açmaq, aqrar sektorda mövcud problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmək məqsədi daşıyırdı. O dövr həyata keçirilən aqrar islahatlar nəticəsində kənd təsərrüfatının dinamik inkişafı üçün zəmin yaradıldı. Aqrar sektorda əsaslı dəyişikliklər baş verdi, müasir tələblərə cavab verən iqtisadi və mülkiyyət münasibətləri formalaşdı, normativ hüquqi baza təkmilləşdirildi, idarəetmədə səmərəliliyin və şəffaflığın artırılması üçün elektron kənd təsərrüfatı sistemi tətbiq edilməyə başladı. Bu gün həmin sadalananlar fonunda aqrar sektorun inkişafı özünü daha qabarıq göstərir.

Dünyada elə ölkələr var ki, sırf coğrafi-iqlim baxımından orada kənd təsərrüfatının inkişaf etdirilməsi mümkün deyil. Azərbaycanda isə tamam fərqlidir, aqrar sektorun inkişafı real zəminə əsaslanır. Əlverişli coğrafi-iqlim şəraiti kənd təsərrüfatının inkişafını birbaşa şərtləndirir. Ölkə əhalisinin təxminən yarıya qədərinin kəndlərdə yaşadığını və məşğul əhalinin 40 faizinin kənd təsərrüfatında çalışdığını nəzərə alsaq, deyə bilərik ki, aqrar sektorun bugünkü inkişaf tempi sosial baxımdan da ciddi önəm kəsb edir.

Cənab İlham Əliyev prezidentliyə başladığı 2003-cü ildən bəri ölkənin ərzaq təhlükəsizliyinin yerli istehsal hesabına təmin edilməsi, bəzi kənd təsərrüfatı məhsullarının xarici bazarlara çıxarılmasının vacibliyini önə çəkmişdir. Dövlət başçısı bunu zaman-zaman Nazirlər Kabinetində keçirdiyi iclaslarda, digər görüş və müsahibələrində vurğulamış və bu istiqamətdə əməli tədbirlər görmüş, addımlar atmışdır. Bu düşünülmüş siyasətin nəticəsidir ki, son 20 ildə Azərbaycanda kənd təsərrüfatı məhsullarının istehsal həcmi real ifadədə 2 dəfədən çox artmış, qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin orta hesabla 10 faizi aqrar sahənin payına düşmüşdür.

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədilə müəyyənləşən vəzifələrə uyğun olaraq, bu il də kənd təsərrüfatında müsbət nəticələr qeydə alınıb. İlin ötən 10 ayı ərzində aqrar sahə üzrə 3, o cümlədən bitkiçilikdə 2,7, heyvandarlıqda 3,3 faiz artım olub. Bu və ümumiyyətlə, ölkəmizin aqrar sahədə son 20 ildə əldə etdiyi nəticələr Dünya Bankının məlumatları əsasında aparılan hesablamalara görə, dünya üzrə orta göstəricidən yüksəkdir. Belə ki, 2003-cü il baza ili olmaqla, 2004-2022-ci illərdə Azərbaycanda aqrar sahədə yaradılan əlavə dəyərin orta illik real artım tempi 3,8 faiz olub. Halbuki bu dövrdə həmin göstərici dünya üzrə 2,9, Avropa və Mərkəzi Asiya üzrə 1,4, region ölkələrindən Türkiyədə 2,7, Gürcüstanda 1,5, Rusiyada 1,8, İranda 2,8 faiz həcmində qeydə alınıb. İstehsal potensialının artması və qlobal dəyər zəncirinə inteqrasiyanın güclənməsi hesabına 2003-2022-ci illər ərzində Azərbaycan kənd təsərrüfatı məhsulları ixracının həcmini 6,9 dəfə artırıb.

Ölkəmizdə aqrar istehsal üzrə ən yüksək göstərici bitkiçilik sahəsindədir və son illər bu göstərici dünya göstəricisindən əhəmiyyətli dərəcədə yuxarıdır. Bu, daha çox meyvəçilik və tərəvəzçilik sahələrinin inkişafı hesabına mümkün olub. Belə ki, 2003-cü illə müqayisədə Azərbaycanda meyvə və giləmeyvə istehsalı 2,2, kartof, tərəvəz və bostan məhsullarının istehsalı 1,6 dəfə artıb.

Prezident İlham Əliyevin daim diqqət və nəzarətində olan məsələlərdən biri də ölkədə yüksək gəlir verən və əməktutumlu ənənəvi sahələrdən olan pambıqçılıq, çayçılıq, baramaçılıq, tütünçülük, fındıq və sitrus meyvəçiliyinin dirçəldilməsi və inkişafıdır. Unudulub tamamilə yaddan çıxmaq təhlükəsi ilə üzləşən bu sahələrdə məhz dövlət başçısının təşəbbüsü və dəstəyi ilə əsaslı dönüş yarandı, bir çox sahələr üzrə dövlət proqramları qəbul edildi. Prezident sosial-iqtisadi inkişafa dair keçirdiyi elə bir iclas və görüş olmadı ki, həmin sahələrdəki vəziyyəti təhlil edib öz tövsiyələrini və tapşırıqlarını verməsin.

Dövlət başçısının formalaşdırdığı müasir aqrar siyasətin mühüm istiqamətlərindən biri də ölkəmizdə iri kənd təsərrüfatı müəssisələrinin və aqroparkların yaradılmasıdır. Buna səbəb ölkədə mövcud olan xırda təsərrüfatların xüsusi çəkisinin həddindən çox yüksək olması idi. Xırda təsərrüfat, məlum olduğu kimi, əhalinin ərzaq təhlükəsizliyini və xarici bazarlara çıxışı təmin etmək üçün lazımi imkanlara malik deyil. İri

təsərrüfatlarda isə yüksək məhsuldarlıqlı bitki sortları və heyvan cinslərinin yetişdirilməsində innovativ texnologiyaların tətbiqi üçün əlverişli şərait yaratmaq daha asan və daha əlverişlidir. Belə müəssisələrdə həmçinin əmək məhsuldarlığı yüksək olur və rəqabətqabiliyyətli məhsul istehsalı təmin edilir. Bütün bunlar onu deməyə əsas verir ki, Prezidentin formalaşdırdığı bu cür müasir aqrar siyasət nəticəsində yaxın gələcəkdə ölkəmizdə əsas ərzaq məhsullarına tələbat yerli istehsal hesabına təmin olunacaq, istehsalçılarımız yüksək rəqabətə davamlı kənd təsərrüfatı və ərzaq məhsulları ilə xarici bazarlara çıxacaqlar. Yeri gəlmişkən qeyd edək ki, xarici ölkələrdə Ticarət evlərinin açılması da Azərbaycanın brend məhsullarının tanıdılması üçün böyük əhəmiyyət kəsb edir.

Göründüyü kimi, Prezidentin aqrar sahədə formalaşdırdığı siyasət nəticəsiz qalmır. Azərbaycan fermerləri yerli istehsal hesabına ərzaq təhlükəsizliyinin təmin edilməsi və xarici ölkələrə ixracı artırmaq üçün qarşıya qoyulan vəzifələri layiqincə yerinə yetirirlər. Bu da onu göstərir ki, İlham Əliyevin 20 illik Prezidentlik dövrü sosial-iqtisadi həyatımızın bütün sahələrində, o cümlədən aqrar sahədə, sözün əsl mənasında, dönüş dövrü olub.